

*Adəm Asnı*

## *Xalqımın igid əsgəri!*

*(Qarabağda gedən şiddətli döyüşlərdə ordumuz ciddi uğurlara imza atır)*

Sən vətənin vuran əli,
Haydı! Hücuma! İrəli!
Millət olmaz yurd, vətənsiz,
Vətən bizə candan əziz.

Döyüşməyə hər an hazır,
Bu gün şanlı tarix yazır,
Rəşadətli əsgərimiz,
Səninləyik hər birimiz.

Yağıları elə qov ki,
Donqar burnun elə ov ki,
Quyruğunu qısıb qaçsın,
Şuşa sizə qucaq açsın.

Qovub çıxar səngərindən,
O, düşməndir, xəncərindən,
Xocalının qanı daman,
Vermə ona, vermə aman!

Düşmənlərin cəhdi hədər,
Salır yurdumdan dərbədər.
Əsgərimiz hücumdadır,
Hər həmləsi zəfər dadır.

Düşmən qorxur, qaçır səndən,
Kötəkləyib qov vətəndən
Gəldiyi yerədək geri,
Xalqımın igid əsgəri!

Sənsən igid, sənsən ərən,
Sal düşməni pərən-pərən,
Vur, qaçınca son nəfəri,
İgid əsgər, çal zəfəri!

Vur! Canına vəlvələ sal,
Şəhidlərin qanını al -
Hamısının, tək, birbəbir,
Qələbə, haqq bizimlədir!

Bitir bu haqq davasını.
Qarabağın havasını
Qoyma udsun mənfur yağı,
Çək qəlbinə qisas dağı.

Bakı, 27-30 oktyabr 2020

## *Qarabağ Azərbaycandır!*

Düşmən xoşluqla söz qanmır,
Hədələyir, heç usanmır.
Qulağından alıb da qan,
Deyəcəyik bir anla, qan,
Hər kəsə də gedib qandır -
Qarabağ Azərbaycandır!
Gücümüz bitməz, tükənməz,
Qalxan bayraq bir də enməz,
Əsgərimiz! Sənsən dönməz,
Zəfər eşqin bitməz, sönməz,
Buna düşməni inandır-
Qarabağ Azərbaycandır!
Qarabağı alacağıq,
Qələbəni çalacağıq,
Düşmənləri yıxıb yerə,
Qəti başa salacağıq -
Vətən bizə ana, candır,
Qarabağ Azərbaycandır!
Yağı düşmən, rədd ol, çəkil,
Vətənimdən cəld ol, əkil,
Ləng tərpənsən ordun it tək,
Qovulacaq, gəbərəcək,
Haqq davamız qana-qandır,
Qarabağ Azərbaycandır!
Gözün aydın, Şuşa, Laçın,
Qolunuzu geniş açın,
Düşmənlərin almış köpün,
İgidləri qucun, öpün,
Bu, tarixi görüş - andır,
Qarabağ Azərbaycandır!
Əydikdüşmənin qəddini,
Artıq biləcək həddini.
Cızığından bir də çıxmaz,
Biz tərəfə dönüb baxmaz,
Başa düşdü ki, ordumuz
Düşmənə qan uddurandır,
Qarabağ Azərbaycandır!
Vətən! Sənə zəfər şandır,
Hər evdə bir toy-nişandır,
Artıq cümlənin sonunda,
Duran o məşhur nidandır[1],
Qarabağ Azərbaycandır!

1.Ermənistanın baş nazi N.Paşinyanın ”Qarabağ Ermənistandır və nöqtə” bəyanatına Prezidentimiz, Ali Baş Komandan İ.Əliyev ”Qarabaq Azərbaycandır və nida işarəsi” kimi tutarlı cavab vermişdi.

ədalət.- 2020.- 27 oktyabr.- S.6.